# Xatırlama

- Əhvalat/hadisə harada və nə zaman baş verir?
- Əsas qəhrəmanlar kimlərdir?
- Baş qəhrəmanı təsvir edə bilərsiz? O, necə görünür?
- Kitab/hekayə/mətn necə başlayır?
- Hekayənin/mətnin hansı hissəsində ..... məlumatı tapa bilərsiz?

# Anlama

- Kitab/hekayə/mətn nə haqqındadır? Nədən/kimdən bəhs olunur?
- Hekayəni kim nəql edir?
- Hadisələr necə cərəyan edir? Nə baş verir?
- Hadisələrin ardıcıllığı necədir?
- ...baş verməsini necə başa düşmək olar? Bu nə anlama gəlir?
- Hansı hissəni daha çox bəyəndin? Niyə?

# Tətbiqetmə

- Buna oxşar mövzuda yazılmış başqa bir hekayə ağlınıza gəlir? Əsaslandırın.
- Bu kitabdakı obraza bənzər başqa bir hekayə qəhrəmanı yadınıza düşür?
- Sizin də hekayədəki obrazların yaşadığına bənzər bir təcrübə başınıza gəlib? Siz də eyni hissləri keçirmisiniz nə vaxtsa? (real həyatla əlaqələndirmə)
- Hansı hekayə/əsərin buna bənzər başlanğıcı var və ya buna bənzər sonluqla bitir?
- Oxşar tərzdə yazan başqa bir yazıçı missal göstərə bilərsiniz? Oxşar cəhətlər?

# Təhliletmə

- Müəllif obrazın necə hiss etdiyini ifadə etmək üçün təsvirdən necə istifadə edib?
- Hekayənin strukturu necə təşkil olunub?
- İzah edə bilərsinizmi niyə..... baş verdi/dəyişdi ? ....obraz niyə belə davrandı?
- Müəllif niyə bu sözləri/cümləni/ifadəni seçib?
- Öz mövqeyini dəstəkləmək üçün hansı arqumentlərdən istifadə edərdiniz?
- Bu əsər/mətn/hekayədə müəllif hansı mesajı verir? Hansı nəticəyə gəlmək olar? Əsaslandırın.

Minara Farzaliyeva

# Dəyərləndirmə



- ……obrazın davranışına münasibətiniz necədir? Niyə?
- …….obrazın güclü/zəif cəhətləri nə idi? Əsaslandırın.
- Mətnə/əsərə istinad edərək......haqqında nə düşünürsüz? Əsaslandırın.
- Mətnin hansı hissələrini təkmilləşdirmək olar? Niyə?
- Hansı hissə daha inandırıcıdır/təsirlidir? Niyə?
- Sonluq effektivdir, niyə? Kiməsə oxumağı tövsiyə edərdin, niyə?

# Yaratma



- Baş qəhrəman siz olsaydınız, ………. necə reaksiya verərdiniz?
- Müəllifin yerinə olsaydınız hekayəni necə başlayardınız/bitirərdiniz/dəyişərdiniz?
- …….baş verməsinin başqa səbəbləri ola bilərdi sizcə?
- Bu əsər/hekayə/mətndəki fikirlər sizin düşüncələrinizə təsir etdi?Necə? Niyə?
- Siz bu mövzuda mətn/hekayə yazardınız?

Minara Farzaliyeva